# Kənd təsərrüfatı dinamik inkişafdadır

**Deyə bilərəm ki, kənd təsərrüfatının inkişafı üçün bu il çox önəmli addımlar atılmışdır. Bir neçə fərman imzalanmışdır ki, bu da kənd təsərrüfatının inkişafına xidmət göstərir. Məsələn, taxılçılıqda məhsuldarlıq böyük dərəcədə—təxminən 20 faiz artmışdır. Əvvəllər hektardan 22 sentner götürürdüksə, mənə verilən məlumata görə, indi 30 sentner götürmüşük.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Yuxarıdakı bu sitat Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının giriş nitqindən götürülüb. Cənab İlham Əliyev daha sonra sözünə davam edərək deyib ki, dövlətin dəstəyi ilə iri fermer təsərrüfatları yaradılır, meliorasiya tədbirləri, bütün aqrotexniki tədbirlər görülür. Strukturlaşma prosesi gedir və şəffaflıq təmin edilir. Əlbəttə, gələcəkdə daha da ciddi işlər aparılacaq ki, həm məhsuldarlıq artsın, həm də biz torpaq fondumuzdan maksimum dərəcədə istifadə edək.



Həmin iclasda Prezident İlham Əliyev yekun nitq söyləyib və yenə də kənd təsərrüfatının və ona xidmət edən sahələrin inkişaf etdirilməsi zərurətindən danışıb. Cənab Prezident qeyd edib ki, "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin xətti ilə subartezian quyularının qazılması davam etdirilir. Bu il kəndlərdə 300 quyu qazılmalıdır və artıq 170-i qazılıb. Şəmkirçay, Taxtakörpü su anbarları tikilib istifadəyə verilib. Şəmkirçay dəryaçasından əkin sahələrinə gedən kanallar sürətlə tikilməlidir ki, biz bu infrastrukturdan maksimum dərəcədə istifadə edək.

Xızı rayonunda artıq kanallar tikilir. Tovuzçay su anbarının tikintisinin başa çatması nəticəsində 20 min hektar torpaqda suvarma yaxşılaşdırılacaq və 300 hektarda yeni torpaq sahələri suvarılacaqdır. Əlbəttə ki, bütün bunlar bilavasitə kənd təsərrüfatı ilə bağlı olan işlərdir. Giriş sözümdə qeyd etdiyim kimi, kənd təsərrüfatının inkişafı bizim üçün prioritetdir. Kənd təsərrüfatında 7,3 faiz artım olub və hesab edirəm ki, biz bu yüksək tempi saxlamalıyıq.

Daha sonra dövlət başçısı qeyd edib ki, bütün lazımi tədbirlər görülüb, struktur islahatları aparılıb, müvafiq sərəncamlar imzalanıb. Biz öz potensialımızdan maksimum dərəcədə istifadə etməliyik və əhalimizi 100 faiz səviyyəsində ərzaq məhsulları ilə özümüz təmin etməliyik.

Dövlət başçısı ölkədə sahibkarlığın inkişafından danışarkən də kənd təsərrüfatını diqqətdə saxlayıb. Deyib ki, biz güzəştlər edirik, fermerlərə subsidiyalar, güzəştli şərtlərlə yanacaq və gübrə verilir. Təkrar əkin üçün indi yeni şərait yaradılır.

Dövlətin bu dəstək və qayğısından bəhrələnən kənd təsərrüfatı dinamik inkişafdadır. Dövlət Statistika Komitəsinin iyunun 1-nə olan məlumata görə, ölkədə kənd təsərrüfatının ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 1 milyard 291 milyon manatdır. Onun sabit qiymətlərlə dəyəri keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,1 faiz, o cümlədən heyvandarlıq məhsulları ilə 3,3 faiz, bitkiçilik məhsulları üzrə isə mövsümilik nəzərə alınmaqla 12,2 faiz artmışdır. İyunun 1-dək ölkədə yazlıq bitkilərin kütləvi əkini əsasən başa çatıb. İlkin məlumata görə, 349,9 min hektar sahədə yazlıq bitkilər, o cümlədən 62,5 min hektarda dənli və dənli-paxlalı bitkilər (ondan 34,6 min hektarı dən üçün qarğıdalı), 60,6 min hektarda kartof, 75,1 min hektarda tərəvəz bitkiləri, 27,2 min hektarda ərzaq üçün bostan bitkiləri əkilib. 18,3 min hektarda pambıq, 9,9 min hektarda dən üçün günəbaxan, 4,9 min hektarda şəkər çuğunduru, 1,3 min hektarda tütün, 83 min hektarda çoxillik, 3,4 min hektarda isə birillik otların əkini başa çatıb.

Dövlət Statistika Komitəsi xəbər verir ki, ölkədə əsas bitkiçilik məhsullarının yığımı davam edir. 1 iyunadək sahələrdən 56,7 min ton kartof, 86,8 min ton tərəvəz, 9,7 min ton meyvə və giləmeyvə yığılmış, çay plantasiyalarından 251,8 ton yaşıl çay yarpağı toplanmışdır. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 7,8; 11,5; 13,7 və 14,2 faiz çoxdur.

İlin 5 ayı ərzində respublikada diri çəkidə 178,9 min ton ət, 786,1 min ton süd, 658,8 milyon ədəd yumurta və 12,9 min ton yun istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 2,4, süd istehsalı 4,4, yumurta istehsalı 3,2, yun istehsalı isə 2,1 faiz artıb.

Dövlət Statistika Komitəsi ölkədə taxıl yığımının gedişi barədə iyulun 6-da növbəti açıqlama verib. Qeyd olunur ki, həmin vaxtadək ölkədəki 915 min hektar taxıl sahələrinin artıq 85 faizindən çoxu biçilib. Bu, təxminən 781 min hektar taxıl sahəsi deməkdir və ilkin çəkidə 2 milyon 369 min ton məhsul istehsal olunub. Əldə olunan göstərici ötən ilin müvafiq dövründəkindən 421 min ton çoxdur. Cəlilabad (186 min ton), Şəki (142 min ton), Ağsu (119) və başqa rayonlar taxıl yığımı kampaniyasında liderlik edirlər.



Göründüyü kimi, ölkədə aqrar sahə dinamik inkişafdadır və dövlətimizin ardıcıl qayğısı sahəsində bu bölmədə daha yüksək göstəricilər əldə olunacağına heç kəs şübhə etmir.

**Nəriman CAVADOV,**
**"Respublika".**